# Onun yaradıcılığı Azərbaycanın teatr və kino tarixində

**İlahi gözəlliyə, zəngin mənəvi aləmə malik Hökümə Qurbanovanın yaradıcılığı teatr və kino tariximizdə xüsusi bir mərhələ təşkil edir. Qeyri-adi səhnə temperamentinə malik aktrisa qəhrəmanın daxili aləmini tam şəkildə təqdim etməklə tamaşaçıların qəlbinə və düşüncəsinə hakim kəsilməyə həmişə müvəffəq olub.**



Bu il görkəmli kino və teatr aktrisası, film səsləndiricisi, SSRİ Xalq artisti Hökümə Qurbanovanın vəfatından 36 il ötür.

Hökümə Qurbanova 1913-cü ildə Bakıda tacir Abbasəli Qurbanov və Məlikət Maqomayevanın ailəsində dünyaya göz açıb. Məlikət xanım tanınmış bəstəkar Müslüm Maqomayevin doğma bacısı idi. Hökümə Qurbanova 1931-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirib, 1931-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki Üzeyir bəy Hacıbəyli adına Bakı Musiqi Akademiyası) təhsil alıb. Aktyorluq fəaliyyətinə 1933-cü ildə "Azərbaycanfilm" Kinostudiyasında başlayıb, C.Cabbarlının təşəbbüsü ilə "Almas" filmində Yaxşı rolunda çəkilib.

Rejissorların diqqətindən heç vaxt kənarda qalmayan Hökümə Qurbanova Abbas Mirzə Şərifzadə, Adil İsgəndərov, Mehdi Məmmədov, Tofiq Kazımov kimi görkəmli sənətkarlarla birgə işləyib. Mehdi Məmmədov aktrisa haqqında "Onun sənət ulduzu" monoqrafiyasını yazıb.

Hökümə Qurbanovanın zəngin obrazlar qalereyasına romantik faciə, realist faciə, romantik-dramatik, realist-dramatik, psixoloji-dramatik, tarixi-dramatik səpkili, lirik təmayüllü psixoloji rollar, yumoristik dramatik rolların ən kamil nümunələri daxildir. Onun yaratdığı Sona (C.Cabbarlının "1905-ci ildə" tamaşası), Xuraman (S.Vurğunun "Vaqif"), Hermiona (U.Şekspirin "Qış nağılı"), Xumar (H.Cavidin "Şeyx Sənan"), Süsən (A.Şirvanzadənin "Namus"), Basantasena (Y.Osnos və B.Binnikovun "Hind gözəli") obrazlarında lirizm, romantik vüsət güclüdür.

Milli səhnəmizin misilsiz faciə aktrisası neçə-neçə kraliça obrazı yaradıb. Onun yaradıcılıq zirvəsində 1964-cü ildə rejissor Tofiq Kazımovun quruluşunda səhnələşən "Antoni və Kleopatra" tamaşası durur.

Aktrisanın 1956-cı ildə Londonda qastrolda olarkən ifası ingilis rejissorunu belə heyrətləndirib.

Hökümə Qurbanovanın "Bir ailə", "Onu bağışlamaq olarmı?", "Əmək və qızılgül", "İnsan məskən salır" filmlərində çəkildiyi rollar da dolğunluğu ilə yadda qalıb. Ömrünün ahıl çağında isə sevimli qızı, görkəmli aktrisa Vəfa Fətullayevanı itirməsi onun üçün ən böyük dərd olub. Hökümə Qurbanova sevimli qızının ölümündən 1 il sonra - 1988-ci il noyabrın 2-də Bakıda vəfat edib. Aktrisa Fəxri xiyabanda dəfn edilib.

Prezident İlham Əliyevin 2013-cü il 4 mart tarixli sərəncamına əsasən, Hökümə Qurbanovanın 100 illik yubileyi dövlət səviyyəsində qeyd edilib.

Azərbaycan.- 2024.- 3 noyabr (№243).- S.7.